# Azərbaycanın cənub rayonlarında Məhərrəm əzadarlığı

written by Araz Bagirov

Azərbaycan Respublikasının cənub rayonlarında (xüsusilə talışların sıx yaşadıqları məntəqələrdə) yaxın zamanlara qədər mövcud olan şiəlik ilk baxışda qonşu bölgələrdə, xüsusən İranda hakim ideologiya olan on iki imam (İsna əşəri) şiəliyindən seçilməsə də, əslində, bir sıra tarixi (həmçinin, iqtisadi-coğrafi) amillərin təsiri ilə burada müəyyən qədər fərqli dini anlayış formalaşıb. Bu fərqlərin necə ortaya çıxdığı başqa bir araşdırmanın mövzusu olsa da, günümüzə qədər qorunması daha çox sovet sisteminin bölgəni ənənəvi referans mərkəzlərindən təcrid edən dini siyasətinin nəticəsi sayıla bilər.

Bəhs edəcəyimiz xüsusiyyətlərin bölgədəki bütün yaşayış məntəqələri üçün istisnasız xas olduğunu iddia etmirik. Əksinə, bir-birinə çox yaxın yaşayış məntəqələrində keçirilən dini mərasimlərin müəyyən qədər fərqli olduğunu, dinin sıxışdırıldığı, dini mətnlər və adətlər mübadiləsinin məhdudlaşdırıldığı şəraitdə məhəlli fərqliliklərin “parladığını” və son illər gedən proseslər nəticəsində bu fərqlərin necə aradan qalxdığını göstərməyə çalışırıq. Bölgədəki din anlayışının yerli, özünəməxsus xüsusiyyətlərindən bəhs edərkən daha çox bu fərqliliklərin yaxşı mühafizə olunduğu talış kəndlərinə istinad etsək də, təsvir etdiyimiz din anlayışının ən vacib elementlərinin bütün regionda yayıldığı şübhəsizdir.

Bölgədəki dini mənzərəni təsvir etmək üçün əsasən kütləvi dini mərasimlər üzərində duracağıq. Burada icra olunan ayinləri, bunların cəmiyyətin həyatında oynadığı rolu, ayinlərin nəsildən-nəslə ötürülmə mexanizmlərini araşdıracaq, eyni

zamanda, son onilliklərdə vüsət almış dini hərəkətliliyin bu baxımdan hansı dəyişikliklərə səbəb olduğunu göstərməyə çalışacağıq.

**Kütləvi dini mərasimlər: Məhərrəm əzadarlığı**

Bölgədəki kütləvi dini mərasimlərdən danışılanda təbii olaraq daha çox Məhərrəmlik ayinləri nəzərdə tutulur. Çünki İslamın digər ictimai ibadətləri ən azından son illərə qədər bu bölgədə daha az icra olunub. Xüsusilə də, gündəlik namazların icma halında qılınması praktikası cəmiyyətin dini həyatına yalnız son illər daxil olub (və ya qayıdıb). Böyük yaşayış məntəqələrində, rayon mərkəzləri və qəsəbələrdə cümə namazı və digər camaat namazlarının məscidlərdə cəm halda qılınması axır illərdə xeyli sıx müşahidə olunsa da, bu praktika bölgə üçün yenilikdir. Bu cür ibadətlərin sovet dövründə yoxa çıxmasını yalnız sistemin təzyiqi ilə açıqlaya bilmərik. Çünki elə həmin təzyiq altında Məhərrəmlik ayinləri kütləviliyini qoruya bilmişdi. Bəhs etdiyimiz icma ibadətlərinin seyrəkliyinə səbəb kimi, (yenə də müəyyən qədər, həmin dini siyasətin nəticəsi olaraq) namaz və oruc kimi İslamın vacib gündəlik ibadətlərini fərdi olaraq yerinə yetirənlərin sayının da son illərə qədər xeyli az olması göstərilə bilər.

Məhərrəm mərasimləri ilə müqayisədə bölgədə Ramazan və Qurban bayramı da ənənəvi olaraq xeyli sönük keçirilir. Ramazan bayramı cəmiyyətin gündəlik həyatından sıxışdırılaraq ölüm sferasına qapadılmış “sovet islamı”ının xarakterinə uyğun şəkildə həyatdan köçmüş yaxınların ruhları üçün mollalara Quran oxudulması, Əhya (Qədr) gecələrində ehsan verilməsi və bayram günü qəbiristanlığın ziyarət edilməsi ilə məhdudlaşdırılıb.

Məhərrəm ayinlərinə gələndə vəziyyət fərqlidir. Cənub bölgəsində insanların məhərrəmlik mərasimində iştirakı, demək olar, onların dindarlıq səviyyəsi ilə əlaqəli deyil. Xüsusən də kəndlərdə insanlar seçdikləri həyat tərzinə, hətta dini inanclarının olub-olmamasına baxmayaraq bu mərasimlərdə

iştirak edirlər. Çünki Məhərrəmlik mərasimləri dini buyruğun icrasından çox sosiallaşmaının, inancdan çox identikliyin təzahürüdür.

Böyük coşquyla keçirilən Məhərrəmlik mərasimləri ayinlərin şəklindən iştirakın ictimailiyinə qədər bölgədəki sosial həyat üzərində ən çox təsiri olan dini hadisədir. Bölgədə keçirdiyi təkamül nəticəsində bu mərasimlər öz kontekstindən müəyyən qədər çıxıb və yerli xalqın adəti şəklini alıb. Qarşıda görəcəyimiz kimi, Məhərrəmlik mərasiminin bölgə üçün ənənəvi olan rituallarında İslama qədərki dini inancların aşkar izlərinə də rast gəlinir.

Talışlar yaşayan bölgələrdə qeyd olunan Məhərrəm əzadarlığının ən mühüm xüsusiyyətlərindən bəhs edərkən bir necə mərkəzi anlayışa diqqət yetirilməlidir. Yuxarıda qeyd etdiyimiz fərqlilikləri açıqca sərgiləməsi baxımından əhəmiyyətli olan amilləri burada təsvir etməyə çalışacağıq. Bunlar *təkə, ələm, şaxsey* və bu mərkəzi anlayışların tərkib hissəsi olan bəzi digər elementlərdir.

***Təkə***

Təkə (və ya təkyə) ərəbcədən gəlmə söz olub, sufi təriqəti üzvlərinin öz ibadətlərini icra etdikləri yerə (həm də bu ibadət zamanı başa qoyulan yarımkürə şəkilli araqçına) verilən addır. Ancaq bölgədə təkə deyiləndə hansısa xüsusi məqsədlə tikilmiş məkan yox, Məhərrəm ayı boyunca əzadarlıq mərasimlərinin keçirildiyi, xüsusi şəkildə bəzədilən evlər (otaqlar) başa düşülür.

Hər il müxtəlif evlərdə qurulan təkələrdə ciddi patriarxal qanunlar hökm sürür. Qadınlar və kişilər üçün ayrı təkələr qurulur. Ancaq məscidi olan kəndlərdə (son illərə qədər bölgədə məscidi olmayan kəndlərin sayı çox idi) kişi təkələri (əzadarlıq məclisləri) məscidlərdə təşkil olunur, qadınlar (və azyaşlı oğlan uşaqları) üçünsə hər məhəllədə ayrıca təkə qurulur. Adətə görə, il ərzində yası düşmüş ev təkəni qəbul etmək haqqına sahibdir, yalnız ev sahibinin imtinasından

sonra təkə başqa evdə qurula bilər.

Təkənin ən mühüm elementi *ələm*dir. “Təkə qurulması/qoyulması” (talışca: ***təkə noy***) ələmin təkə otağına gətirilməsi ilə başlanır; ələmin aparılması ilə də təkə bitmiş sayılır. İstər məsciddə olsun, istər təkə evində, mərasimin keçirildiyi məkana ayaq basan hər bir kəs öncə ələmi salamlamalı, ona nəzir verməlidir. Təkələrdə (və məscidlərdə) əzadarlıq mərasimləri Məhərrəm ayının birinci günündən başlanır (təkə otaqları bundan bir gün əvvəl, hicri təqvimlə zilhiccə ayının son günü qurulur) və Aşuradan sonrakı yeddinci günə qədər davam edir.

Aşura günü istisna olunmaqla mərasimlər axşama salınır. Mərasim Yasin surəsinin oxunması ilə başlayır, mərsiyə deyilməsi, mollanın Kərbəla hadisəsinin epizodlarını mifləşdirilmiş formada nağıl eləməsiylə davam edir.

Ayinlərin zirvə nöqtəsi *Tasua* gecəsi və *Aşura* günüdür. Tasua gecəsi niyyət eləmiş insanlar sabaha qədər oyaq qalıb “ələmə yoldaşlıq edirlər”. Aşura günü günorta saatlarında isə ən kütləvi matəm mərasimləri başlanır.

***Ələm***

Bölgədə keçirilən məhərrəmlik mərasimlərinin yuxarıda sadaladığımız anlayışları arasında ən vacibi ələmdir. Mərasimlər ələmin çox güclü mistik aurası ətrafında toplanır. Ələm – ərəb dilində işarə, simvol (“əlamət” sözünün tək halı), bayraq (daha doğrusu, bayraq dirəyinin başındakı metal, xüsusi rəmzi əhəmiyyəti olan əşya) mənalarını verir[1]. Bu simvolun başlıca əhəmiyyəti bölgədəki talışların dilində də öz əksini tapıb; talış dilində “ələm” sözü Məhərrəmlik ayı ilə bağlı bir sıra anlayışları ehtiva edir. Məsələn, talışlar məhərrəm ayına ***ələm ayı*** (*aləmə mang*), bu ayda verilən ehsanlara ***ələm aşı/plovu*** (*alәmә polo*) deyirlər.

Ələm Kərbəlada şəhid olmuş şiə imamı Hüseynin bayrağı, onun üsyanının rəmzi kimi qəbul edilir və daha çox İmam Hüseynin

qardaşı Abbas ibn Əli (Əbülfəzl Abbas) ilə assosiasiya olunur. Ələmin Kərbəla ziyarətindən gətirilmiş olması, üstəlik daha qədimi olması onun sanbalını artırar. Ələmə inamda animistik dini inancların qalıqları görünür. Ələmə sayğı duyulması vacibdir. İnanca görə, əgər ələmə hörmətsizlik edilsə, onun yanında uca səslə gülünsə, danışılsa, ələm yerə düşürülsə, haram pulla ələmə nəzir olunsa, ələm küsər, uçub Kərbəlaya gedər. Bundan başqa, bəzi xüsusi (“ağır”) ələmlərin mistik gücə malik şəxslərin (əksər hallarda seyidlərin) toxunuşu ilə “cuşa gəldiyinə” də inanılır.

Ələmlər daha çox əl formasında olsa da, nizə ucluğu, ikidişli yaba və s. şəkilli olanları da var. Ələm onu kəndə (yaşayış məntəqəsinə) gətirən şəxs tərəfindən məscidə və ya ocağa (pirə) vəqf edilmədiyi təqdirdə onun və varislərinin mülkiyyətindədir. Ələmə bağlanan nəzirlərlə bağlı qərar haqqı da həmin insanlara məxsusdur. Ələmlər tək-tək istisnalarla din xadimlərində olduğundan (son illərdəki axını çıxmaq şərtilə Kərbəla ziyarətinə daha çox din xadimləri getdikləri üçün) onun mülkiyyətinə yiyələnmək də bu adamlara həm dini, həm də iqtisadi mənada imtiyazlar verir.

Məhərrəm əzadarlığının ən kütləvi hissəsi “ələm gəzdirilməsi” (talışca: ***“aləm novnye”***) mərasimidir. Tasua və Aşura günlərində yerinə yetirilən bu mərasimdə insanlar məscidin və ya təkə evinin həyətinə toplaşaraq mərasimi idarə edən din xadiminin başçılığı ilə ələmi təkə evindən (məsciddən) çıxarırlar. Bundan sonra ələm xüsusi dini şüarların müşayiətilə bütün kəndi və ya məhəlləni gəzir, hər həyətdə ev sakinləri ələmi qarşılayıb ona nəzir verəndən sonra ələmi müşayiət edən dəstəyə qoşulurlar. Kəndin ayrı-ayrı məhəllələrindəki təkələrin ələmləri bu gəzintidə “görüşdürülür”, bir təkənin icması öz ələmi ilə qonşu məhəllənin təkəsini və kənd məscidini ziyarət edir. Bu gəzintilərdə təkələrin təşkilində gözlənən patriarxal fərqlər aradan qaldırılır və bütün Tasua və Aşura mərasimlərində qadınlarla kişilərin bir arada iştirakı (ən azı passiv iştirakçı kimi) müşahidə olunur.

Ələm gəzdirmə mərasimləri bölgənin yaşayış məntəqələri arasında da hərəkətlilik yaradır, dəstə-dəstə insanlar ələmin müşayiətilə qonşu kəndlərin məscidlərinə, ya da yaxınlıqdakı (piyada gedilməsi mümkün olan) pir və imamzadələrə gedirlər.

Belə mərasimlər ələmin çıxdığı nöqtəyə – məscidin və ya təkə evinin həyətinə qayıtması ilə başa çatdırılır. Burada isə şaxsey ritualının icrasına başlanır.

***Şaxsey***

Bölgədəki məhərrəmlik mərasimlərinin ən maraqlı rituallarından biri *şaxsey* ayinidir. Formaca yas mərasimindən çox qrup şəklində ifa edilən rəqsə bənzəyən şaxsey özündə islamaqədərki inancların (və böyük ehtimalla mistik təriqətlərin) izlərini daşıyır. Talışların **şaxsoy** (***şaxsoy qəte*** – "şaxsey tutmaq" və ya ***şaxsoy şe*** – "şaxsey getmək") və ya **şaxsoy-vaxsoy** adlandırdıqları bu ritual Məhərrəm ayinlərinin ən önəmli məqamlarından biridir. Maraqlıdır ki, bu ayinin icrasında Anadolu ələvilərinin (ortodoksal islam anlayışından uzaq təriqətlərin) Aşura ibadətləri ilə müəyyən bənzərliklər var. Şaxsey yalnız kişilərin iştirakı ilə, iki qrup şəklində saat əqrəbinin əksi istiqamətində dairəvi "rəqs etməklə" icra olunur. *Şaxsey gedəcək* qruplar toplanıb meydanda hazır dayananda mollanın işarəsi ilə mərasim başlanır.[2] Ritual qrupların səsləndirdiyi dini şüarların müşayiəti və rəqsi ilə davam edir. Şüar mövzusunda yaradıcılığa çox da imkan verilmir, əvvəlcədən bilinən, dildən-dilə ötürülən hazır şüar cütləri var, yəni qruplardan birinin səsləndirdiyi şüara qarşı tərəf o şüarın əvvəlcədən bilinən qarşılığı ilə cavab verir.[3] Şüarlar azərbaycanca, talışca, bəzən də farsca səsləndirilir və eyni şüar cütü bir neçə dəfə təkrarlanır. Şüarlar daha çox şiə imamlarının (ən çox Əli, Həsən və Hüseyn) tərənnümü, Yezid və tərəfdarlarının həcvi ilə bağlıdır. Qrupların rəqsi bir-birindən fərqlənir: şüarı səsləndirən qrup daha sürətli, cavab verən qrup isə nisbətən ağır rəqslə çevrəni dolanır və bu rollar növbə ilə dəyişir.

Şaxseyi icra edən iki qrupun yaratdığı çevrənin müqəddəs, mistik aurasının olduğuna inanılır. Ələm(lər)i daşıyanlar şaxsey dairəsinin mərkəzində dayanırlar, ələmi tutan şəxs şaxsey gedən qrupun hərəkətinə görə istiqamətini dəyişir (qrup hərəkət etdikcə ona doğru yönəlir). Şaxseyin yaratdığı çevrənin müqəddəsliyinə bəslənən inanca görə, bu çevrə insanları xəstəlikdən sağaltmaq, uğursuzluqdan xilas etmək kimi gücə sahibdir. Hansısa xəstəliyi olan, arzuolunmaz vərdişlərdən əziyyət çəkən insanlar şaxsey çevrəsinin mərkəzində qalır, ələmi tutur. Körpə uşaqların naxoşlamaması və ya xəstəlikdən sağalması üçün onları şaxsey çevrəsinin ortasında yerə qoyurlar, şaxsey gedənlər bu körpəyə ayaqları ilə toxunmaqla onu bir növ müqəddəs çevrənin mühafizəsinə alırlar.

***Məhərrəm ehsanları***

Kəndlərdəki Məhərrəm əzadarlığının sosial baxımdan vacib elementlərindən biri də ehsandır. *"İmam xeyratı", "ələm plovu"* kimi də adlandırılan bu ehsanların verilməsi Aşuradan öncəki günlərdə başlanır, Tasua gecəsi başa çatır. Ehsan məclisləri kəndin və ya məhəllənin (maddi vəziyyəti imkan verən) bütün ailələrinin təşəbbüsü ilə qurulur. Kasıbları doyurmaqdan çox cəmiyyətdə sosial əlaqələri gücləndirməyə hesablanmış bu mərasim zamanı ailələr bir-birini növbə ilə ehsana qonaq edir. Lakin ehsan məclisinə kimin çağırılması ev sahibinin qərarına deyil, kənd (məhəllə) ağsaqqalının təsadüfi seçiminə bağlıdır.

***Məhərrəm əzadarlığının aurası, kökləri və sosial funksionallığı***

Maraqlıdır ki, digər regionlara baxanda bu bölgədəki məhərrəmlik mərasimləri ağır hüzn və bədbinlik ovqatında keçmir. Bu mənzərə əzadarlıq mərasimdən çox hansısa qədim dini bayramı və ya festivalı xatırladır. Mərasimlərdəki hakim diskurs dini referans mərkəzlərindən alınmış ritorika ilə ayinlər zamanı ağlamağı və hüznlənməyi təşviq etsə də, mərasimlərin ümumi atmosferi bu tövsiyələrin çox da nəzərə

alınmadığını göstərir.

Bu mərasimləri (ümumiyyətlə bölgədəki şiəlik anlayışını) diqqətlə gözdən keçirəndə islamaqədərki dinlərin qalıqları nəzərdən qaçmır. Bir animistik simvol kimi özünü göstərən ələm, qədim dini rəqslərin şiə inancı ilə kamuflaj olunmuş şəkli kimi ortaya çıxan şaxsey, mərasim boyu bir sıra məqamlarda özünü göstərən dairəvi hərəkət tərzi bizə bu ayinlərin formalaşmasında qədim dini adətlərin ciddi təsiri olduğunu söyləməyə əsas verir.[4] Bölgədəki mərasimlər Anadoludakı ələvi təriqəti mənsublarının dini rituallarına da (*cəm*) çox oxşayır. Digər mühüm cəhət isə şiə əzadarlıq mərasimlərinin insanların öz qanlarını axıtması ilə müşayiət olunan ayinlərinin bölgədə, xüsusən də ucqar kəndlərdə heç də həmişə müşahidə olunmamasıdır.

Məşhur yazıçı-filosof Elias Kanettinin "ağı dini" (*religion of lament*) təbiri cənub bölgəsindəki dini anlayışı dəyərləndirmək üçün həddindən artıq bədbin olsa da, bu mərasimlərin mərkəzində Kərbəla müsibətinin durduğunu nəzərə alsaq, müəyyən mənada onunla razılaşmalı oluruq.[5] Üstəlik, məhərrəm ayına düşüb-düşməməsindən asılı olmayaraq bütün yas mərasimləri özündə Kərbəla hadisəsinin elementlərini daşıyır.

Bu məsələ özünü təkcə dini-mənəvi sferada göstərmir; icmanın gündəlik həyatında ictimai münasibətlərin qaydaya salınması baxımından da məhərrəmlik mərasimləri mühüm funksionallığa malikdir. Coşqu ilə qeyd edilməsi baxımından yalnız Novruz bayramı ilə müqayisə oluna biləcək bu mərasimlər kütləviliyi və icmadaxili həmrəyliyin təmin olunmasındakı rolu sarıdan ondan daha əhəmiyyətlidir.

***Mərasimlərdəki varislik mexanizmləri***

Dini təhsilin məhdudlaşdırıldığı sovet dövründə mərasimlər, ayinlərin icra edilmə formaları və istifadə olunan dini mətnlər yarıgizli şəkildə, qeyri-rəsmi, məhəlli dini təhsil sistemi vasitəsilə ötürülürdü. "Mərsiyə dəftərləri" mollalardan, mərsiyəxanlardan onların tələbələrinə,

övladlarına qalırdı. 1990-cı illərin əvvəllərində ortaya çıxan bəzi nəşrlər dini ədəbiyyat qıtlığı şəraitində sürətlə yayılaraq mollaların, mərsiyəxanların repertuarını təzələdi. Həmin nəşrlər daha çox klassik Azərbaycan şairlərinin Aşura ilə bağlı şeir və növhələrindən ibarət idi. Son illərdə bu repertuar daha da zənginləşib.

**Yerli və idxal olunan din**

Sovet İttifaqının dağılmasından və ölkənin dini həyatının xarici təsirlərə açılmasından sonra qısa zamanda yerli şiəlik anlayışında ciddi dəyişikliklər müşahidə olunmağa başladı. 1990-cı illərin əvvəllərindən başlanan bu proses getdikcə daha geniş vüsət aldı. Bu dəyişikliklər bir tərəfdən informasiya texnologiyalarının inkişafı, digər tərəfdən ölkədəki dini ədəbiyyat ehtiyacının idxal materiallar hesabına ödənməsi sayəsində çox sürətlə yayıldı.

İnternetin geniş kütlələr üçün əlçatan hala gəlməsindən öncə də sərhədyanı yaşayış məntəqələrində ölkənin efir dalğasına girən İran televiziya və radio kanalları bu baxımdan mühüm rol oynayırdı. Üstəlik, İranda təhsil almış din xadimləri onsuz da nüfuz sahibi olmayan ənənəvi mollaları sıxışdıraraq bölgə üçün yeni dini anlayışlar gətirməklə bərabər minbərləri də ələ keçirirdilər. İranda Azərbaycan dilində nəşr olunmuş dini ədəbiyyatın ölkəyə gətirilməsi, sonrakı dövrdə isə ölkədə bu cür ədəbiyyatın nəşri üzrə ixtisaslaşmış nəşriyyatların ortaya çıxması da prosesi sürətləndirən amillərdən oldu. Əlaqələrin bu şəkildə bərpası və Azərbaycandakı şiələrin iranlı ayətullahları təqlid məqamı kimi qəbul etməsi bu təsirin davamlılığına səbəb oldu. İnternetin yayılması isə sözügedən təsirin yayılmasına daha böyük sürət verdi.

İran təsirinin nəticəsində Məhərrəm əzadarlığının yerli çalarları getdikcə daha az gözə çarpır. İran təhsilli yeni din xadimlərinin həm savadına, həm də nüfuzuna görə onlarla rəqabət aparmaq iqtidarında olmayan ənənəvi mollaları sıxışdıraraq kürsüləri ələ keçirməsi əvvəlcə iri yaşayış

məntəqələrində, getdikcə isə kəndlərdə də İrandan idxal olunmuş tək tipli mərasim şəklinin önə çıxmasına şərait yaradıb. Bu yeni şiə din xadimləri bir tərəfdən dövlətin nəzarətində olan, ciddi təhsil almamış, dini mərasimləri idarə etməklə pul qazanan ənənəvi mollalara, digər tərəfdən də ölkəyə başqa istiqamətlərdən idxal olunan dini cərəyanlara qarşı mübarizə aparırlar.

Bu baxımdan baş vermiş ən mühüm yenilik bölgənin mədəni-ictimai həyatının apolitik elementi olan Aşuranın qısa zamanda sürətlə siyasi çalar qazanmasıdır.

***Məhərrəmlik ayinləri fonunda İslamın siyasiləşməsinin bölgənin dini həyatında əksi***

Azərbaycanda siyasi şiəlik Suriya müharibəsinin başlanmasından sonra formalaşan beynəlxalq faktorların təsiri altında aktiv fazaya daxil oldu. Siyasiləşmənin bölgədəki təzahürləri ən çılpaq şəkildə Aşura mərasimlərində müşahidə olundu. Lənkəranda keçirilən, regionun hər yerindən insanların iştirak etdiyi Aşura yürüşlərində hər il daha çox və daha açıq şəkildə siyasi şüarlar səsləndirilməyə başlandı. Belə yürüşlərin ən izdihamlısı 2015-ci ildə təşkil olunmuşdu. Həmin ilin noyabrında baş vermiş Nardaran hadisələrindən sonra siyasi cəhətdən aktiv şiə qruplarına təzyiqi artıran Azərbaycan hakimiyyəti 2016-cı ildən etibarən bu tip yürüşlərin və məscid xaricində hər hansı dini mərasimin keçirilməsini qadağan etdi. Nardaran hadisələri ilə əlaqədar həbs olunmuş din xadimləri arasında bölgədə güclü nüfuzu olan Zülfüqar Mikayılzadə və Elman Ağayev də var[6].

Dövlət həm güc strukturları, həm Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, həm də nəzarətdə saxladığı Qafqaz Müsəlmanları İdarəsi vasitəsilə bölgənin (və ölkənin) dini həyatını tənzimləməyə çalışsa da, xüsusilə ikinci mexanizmlə buna nail olması o qədər də asan görünmür. Çünki dövlətin öz dini siyasətini həyata keçirmək üçün istifadə etdiyi Qafqaz Müsəlmanları İdarəsi insanlar arasında real təsirə malik

deyil. Buna görə də Qafqaz Müsəlmanları İdarəsi vasitəsilə dini həyatın nəzarət altına alınmasına, konkret halda Aşura mərasimlərinin tənzimlənməsinə yönəlmiş cəhdlər ciddi nəticə vermir, bu mərasimlər yalnız güc strukturlarının fəaliyyəti hesabına məhdudlaşdırılır[7]. Qafqaz Müsəlmanları İdarəsinin Aşura günlərində təşkil etdiyi qanvermə aksiyalarının əhatə dairəsi də daha çox büdcədən maliyyələşən qurumların işçiləri ilə məhdudlaşır.

**Nəticə**

Gördüyümüz kimi, bölgənin dini həyatında baş verən dəyişiklikləri sovet sisteminin ideoloji təzyiqi altında fərdi sferaya sıxışdırılmış dinin sosial sferaya qayıdışı kimi xarakterizə etmək doğru olmazdı. Ayrı-ayrı fərdlərin saf, səmimi etiqadını nəzərdən qaçırmadan deyə bilərik ki, “geri qayıdan” İslamın keyfiyyətcə fərqli bir İslam olduğunu görməmək mümkün deyil.

Haqqında danışdığımız keyfiyyət dəyişikliyinin gündəlik həyatda əksini necə tapdığını anlamaq istəyənlər üçün bölgədə zəngin material var. Dinin heç vaxt sosial sferadan tamamilə sıxışdırılıb çıxarılmadığı bu rayonlarda idxal edilən dinin yaratdığı fərqlər daha aydın görünür.

Bu keyfiyyət dəyişikliklərinin çox səbəbi ola bilər. Amma İran inqilabından (və İslam coğrafiyasının müxtəlif nöqtələrində baş verən hadisələrdən) sonra bütünlüklə İslam dininin öz siyasi tarixinin yeni mərhələsinə qədəm qoyması, Sovet İttifaqının süqutundan sonra yeni tendensiyaların Azərbaycanı da təsir dairəsinə alması bu baxımdan ən başlıca səbəbdir. İnformasiya texnologiyalarının yaratdığı imkanlarla bu axınlar ölkəyə və bölgəyə böyük sürətlə daxil olur, nəticədə bölgədəki dinin özünəməxsus yerli xarakteri durmadan aşınır.

Hazırkı şəraitdə İran mərkəzli şiəlik təkcə siyasi nüfuz baxımından yox, mərasimlərin forması baxımından da regiondakı şiələri təsir altına salıb. Bunu da vurğulayaq ki, İrandan gələn təsirin yerli mərasim ənənələrini sıxışdırması heç də

“bidətlə mübarizə”nin nəticəsi deyil, sadəcə, daha güclü imkanları və yazılı ədəbiyyatı olan bir ənənənin yerli şifahi ənənəni assimilyasiya etməsidir.

Sözügedən aşınmanın digər önəmli səbəbi isə iqtisadiyyata bağlıdır. 1990-cı illərin əvvəllərində kənd təsərrüfatında yaranan böhran insanların iş tapmaq üçün kəndlərdən şəhərlərə, Rusiya bazarlarına üz tutmasına səbəb olduğundan kəndlər nəzərəçarpan dərəcədə boşaldı, kənd icmaları dağıldı. Beləcə, icma həyat tərzinin ayini kimi funksional olan Aşura mərasimləri də getdikcə şəklini dəyişdi.

Beləliklə, gündəlik həyatdakı tətbiqindən tutmuş siyasi arenada istifadəsinə qədər bütün müstəvilərdə güclü təsir imkanları qazanan din bölgədə mövcud olmuş əvvəlki simasını əhəmiyyətli dərəcədə itirib. Görünən budur ki, regionda dini metamorfoz hələ də davam etməkdədir.

**İstinadlar**

[1] Azərbaycan Dilinin İzahlı Lüğətində: **Ələm – *Bayraq (adətən dini ayinlərdə işlədilən bayraq)***

(**Azərbaycan Dilinin İzahlı Lüğəti, dörd cilddə,** II cild, səh. 101, Bakı, Şərq-Qərb, 2006**)**

[2] Bu işarənin qəlibləşmiş şəkli var: molla (yaxud kənd ağsaqqalı) ilə şaxsey qrupları arasında farsca qısa bir dialoq baş verir. Dialoqun sonunda mollanın “Bər qatilane Əba-Əbdullahil Huseyn, ta be ruze qiyamət, mudam lənət başəd” (Allah bəndələrinin atası Hüseynin qatillərinə qiyamət gününə qədər lənət olsun) deməsi ilə ayin başlanır.

[3] Məsələn: Tərəflərdən biri “Heydəri mədəd” deyə səslənirsə, qarşı tərəf “Ya Əli mədəd” deyə cavab verir. Eyni qaydada “Həsən şəhid – Hüseyn şəhid”, “Ələme siyah – Bə Kərbəla” və s. Kimi şüarlar səsləndirilir.

[4] Bununla belə, bu mövzuda daha dəqiq fikir söyləyə bilmək üçün sistemli araşdırmalara ehtiyac var. Qeyd etməliyik ki,

talışların dini inanc sistemlərindəki arxaik elementlər təkcə bu mərasimlərdə qarşıya çıxmır. Bu elementlərlə talışların gündəlik danışıq dilində də asanlıqla qarşılaşa bilərik. Məsələn, talışlar and içəndə islami referanslarla yanaşı od və göy cisimlərinə də istinad edirlər: “Bə həşi çəş” (Günəşin gözünə [and olsun]), Bə otəşi çəş (Odun gözünə [and olsun]) və s.

Yenə mövzu baxımından ən maraqlı nüanslardan biri talış dilində “Allah” kəlməsinin ümumiyyətlə işlədilməməsidir. Dini dairələrdə “Tanrı” sözünün “Allah” sözü əvəzinə istifadə edilməsinin etirazla qarşılandığını nəzərə alanda bu amil olduqca təəccüblüdür. Talışlar gündəlik danışıqda Allah sözünü “Xıdo” (Xuda /Tanrı) ilə əvəzləyirlər, “Allah” isə yalnız dini rituallar zamanı ərəbcə mətnlər oxunarkən və ya azərbaycanca danışıqda istifadə olunur.

[5]Canetti, Elias, **Crowds and Power**, pgs.146-154, New York, Continuum Press, 1981

Müəllif islamı savaş dini kimi xarakterizə etsə də, şiəliyi ağı dini kateqoriyasına daxil etməklə ondan ayırır.

[6] http://axar.az/news/planet/231699.html

[7] https://www.azadliq.info/160311.html